# Açıq Hökumətin təşviqinə dair Milli Fəaliyyət Planının (2012-2015-ci illər) yerinə yetirilməsi ilə əlaqədar 2012-2013-cü illər ərzində görülən işlər barədə Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasının

## M Ə L U M A T I

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş 2012-2015-ci illəri əhatə edən "Açıq Hökumətin təşviqinə dair Milli Fəaliyyət Planı"nın (bundan sonra- "Fəaliyyət Planı") əsas məqsədi 2007-2011-ci illərdə icra olunan "Şəffaflığın artırılması və korrupsiyaya qarşı mübarizə üzrə Milli Strategiya"nın icrasında davamlılığının təmin edilməsi, bu sahədə normativ hüquqi bazanın və institusional mexanizmlərin təkmilləşdirilməsi, dövlət və yerli özünüidarə orqanlarının fəaliyyətinin açıq hökumət prinsiplərinə uyğunlaşdırılması, qərarların qəbulu prosesində ictimaiyyətin iştirakının genişləndirilməsi və şəffaflığın arıtılmasını təmin etməkdir.

Fəaliyyət Planında dövlət orqanlarının fəaliyyətində şəffaflığın artırılması, hesabatlılığın təmin edilməsi, ictimaiyyətin iştirakının genişləndirilməsi və yeni texnologiyaların tətbiqi əsas prinsiplər kimi təsbit edilmişdir. Ölkəmiz beynəlxalq səviyyədə başlanılmış Açıq Hökumət Tərəfdaşlığı Beynəlxalq təşəbbüsün qoşulan ilk ölkələrdən biridir.

Fəaliyyət Planının təsdiq edilməsi ilə bağlı Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli Sərəncamına əsasən mərkəzi və yerli icra hakimiyyəti orqanları hər il 15 yanvar tarixinədək Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin icrası barədə məlumatları Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və Korrupsiyaya qarşı mübarizə üzrə Komissiyasına (bundan sonra Komissiya) təqdim edirlər. Komissiya tərəfindən bu məlumatlar və tədbirlərin icra vəziyyəti mütəmadi təhlil edilir və məlumatlar ictimaiyyətə təqdim edilir.

Komissiya tərəfindən təqdim edilən bu qiymətləndirmə 2012-2013-cü illər ərzində mərkəzi və yerli icra hakimiyyəti orqanları tərəfindən təqdim edilmiş məlumatlar əsasında hazırlanmışdır. Bununla əlaqədar Komissiya qeyd edir ki, bəzi yerli icra hakimiyyəti orqanları tərəfindən təqdim edilmiş məlumatlar natamam hazırlanmış və üzərlərinə düşən vəzifələrin hansı səviyyədə icrası barədə məlumatları tam əks etdirməmişdir. Komissiya tərəfindən belə məlumatlar tədbirin qismən və ya icra edilməməsi kimi qiymətləndirilmişdir.

Fəaliyyət Planı ümumilikdə 9 istiqamət olmaqla 45 tədbirdən ibarətdir. Fəaliyyət Planında tədbirlərin əksəriyyətinin icrası üçün 2013-2014-ci illər icra müddəti kimi müəyyən edilmişdir. Fəaliyyət Planının 2012-ci ilin sonuna yaxın qəbul olunması nəzərə alınarsa, şərti olaraq 2013-cü ili tədbirlərin tam icrası üçün başlanğıc ili hesab edilə bilər. Belə ki, 2012-ci il ümumi olaraq fəaliyyətin planlaşdırılması və hazırlıq işlərinin görülməsi məsələlərini əhatə etmişdir. Fəaliyyət Planında tədbirlərin 22%-nin 2012-ci ildə, 33%-nin, 2013-cü ildə, 27%-nin 2014-cü ildə, 18%-nin isə 2015-ci ildə icra edilməsi müəyyən edilmişdir. Göründüyü kimi 2013-2014-cü illərdə Fəaliyyət Planın əksər hissəsinin (60%-nin) tam icra edilməsi nəzərdə tutulmuşdur.

Ümumi olaraq Komissiya tərəfindən aparılan qiymətləndirmənin nəticəsinə əsasən isə Fəaliyyət Planında 2012-2013-cü illər üçün nəzərdə tutulan tədbirlərin dövlət qurumları tərəfindən tam icra vəziyyəti 64% müəyyən edilmişdir.

Fəaliyyət Planının qiymətləndirmə metodologiyası 2 əsas hissədən ibarətdir. Birinci mərhələdə qiymətləndirmə 9 bənd üzrə 45 fəaliyyət növünün müvafiq dövlət qurumları tərəfindən tam, qismən və ya icra olunmama vəziyyətini müəyyən edir. Beləki, birinci mərhələdə 45 fəaliyyət növü üzrə 0-2 şkalası əsasında dövlət orqanları tərəfindən Fəaliyyət Planının müvafiq bəndlərinin icra vəziyyəti müəyyənləşdirilir. Qeyd olunan şkala əsasında fəaliyyət növləri üzrə icra səviyyəsi; 0 xal- icra olunmayıb, 1 xal- qismən icra olunub, 2 xal- tam icra olunub kimi qiymətləndirilir.

Nəticədə fəaliyyət növləri üzrə dövlət qurumlarına verilən xallar toplanaraq, eyni öhdəliklər qrupunun xal şkalası əsasında, fəaliyyət növünün mərkəzi və yerli icra hakimiyyəti orqanları tərəfindən tam, qismən və icra olunmaması üzrə orta faizlər hesablanır.

İkinci mərhələdə isə ilkin qiymətləndirmənin nəticəsi əsasında Fəaliyyət Planında 2012-2013-ci illər üçün nəzərdə tutulan tədbirlərin ümumilikdə hansı səviyyədə icra olunması müəyyən edilir.

Fəaliyyət Planının icrası ilə bağlı konkret bəndlər üzrə aşağıdakı tədbirlər həyata keçirilmişdir.

<table>
<tr><th colspan="2">1. Informasiya əldə edilməsinin asanlaşdırılması</th></tr>
<tr><td>1.1</td><td>Dövlət qurumlarında informasiya azadlığı üzrə məsul şəxslərin müəyyən edilməsi, informasiya azadlığı ilə bağlı daxili icraat qaydalarının qəbul edilməsi və bu barədə ictimaiyyətin məlumatlandırılması (icra müddəti 2012-2014)</td></tr>
<tr><td colspan="2">Bu bəndin tələblərini dövlət orqanlarının 76 faizi tam icra edib, 15 faizi isə qismən icra edib, 9 faiz isə icra etməyib. Belə ki, bütün mərkəzi icra hakimiyyəti orqanlarında və əksər yerli icra hakimiyyəti orqanlarında məsul şəxslər təyin edilmiş və daxili icraat qaydaları qəbul edilmişdir. Komissiya qeyd edir ki, informasiya azadlığı üzrə məsul şəxslərin əlaqə vasitələri və informasiya azadlığı ilə bağlı daxili icraat qaydaları qurumların internet səhifələrində yerləşdirilməsi təkmilləşdirilməlidir. İctimaiyyətin bununla bağlı məlumatlandırılması üçün tədbirlər həyata keçirilməlidir.</td></tr>
<tr><td>1.2</td><td>İnformasiya azadlığının təmin edilməsi məqsədi ilə məsul dövlət qulluqçuları üçün ətraflı treninqlərin keçirilməsi (icra müddəti 2012-2014)</td></tr>
<tr><td colspan="2">Bu bəndin tələblərini dövlət orqanlarının 76 faizi tam icra edib, 9 faizi isə qismən icra edib, 15 faiz isə icra etməyib. Bu bəndin tələblərini qismən icra edən qurumlar bu istiqamətdə hazırlıq işləri görmüş, aidiyyəti materiallar hazırlamış lakin ixtisaslaşmış treninqləri təşkil etməmişlər. Ümumi iclas formatında və ya fərqli mövzuda olan təlim seminarlarda bu məsələlərə toxunmuşlar. Komissiya qeyd edir ki, bu sahədə treninqlər ixtisaslaşmış olmalı, yalnız informasiya azadlığının təmin edilməsi məsələlərini əhatə etməli, silsilə formada olmalı və bütün aidiyyəti əməkdaşları əhatə etməlidir. Yerli icra hakimiyyəti orqanları tərəfindən bu istiqamətdə fəaliyyətə diqqət artırılmalı və əməkdaşlar bu təlimlərə cəlb edilməlidir. Həmçinin bu bənd üzrə hesabatlılığın tam təmin edilməsi üçün dövlət orqanları il ərzində keçirdikləri treninqlər və bu treninqlərdə ki, iştirakçıların sayı barədə məlumatları Komissiyaya təqdim etməlidirlər. Azərbaycan Respublikasının İnsan hüquqları üzrə Müvəkkili bu təlimlərin keçirilməsi üçün təlim modulunun hazırlanması və orqanlara metodoloji dəstəyin verilməsi üçün fəaliyyəti həyata keçirməlidir.</td></tr>
</table>

| | |
|---|---|
| 1.3 | “İnformasiya əldə etmək haqqında” Azərbaycan Respublikası Qanununun tələblərinin icrasına nəzarətin həyata keçirilməsi məqsədi ilə Azərbaycan Respublikasının İnsan hüquqları üzrə Müvəkkilinin (Ombudsmanın) Aparatının strukturunun təkmilləşdirilməsi, aidiyyəti əməkdaşların ixtisaslaşmış treninqlərə cəlb edilməsi (icra müddəti 2013-2014) |

Bu bəndin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının İnsan hüquqları üzrə Müvəkkilinin (Ombudsman) aparatının strukturunun təkmilləşdirilməsi 2014-cü il üçün nəzərdə tutulmuşdur. Bununla bağlı Ombudsman aparatında müzakirələr aparılmış və bu bəndin icrası üçün müvafiq hazırlıqlar görülmüş, təkliflər hazırlanmışdır. Bu bənd icra müddətləri nəzərə alınaraq qismən icra edilmiş hesab edilir**.** Ombudsman Aparatının əməkdaşları ixtisaslaşmış treninqlərə cəlb edilmişdir. *Komissiya qeyd edir ki, Azərbaycan Respublikasının İnsan hüquqları üzrə Müvəkkili qısa müddət ərzində bəndin tələblərinin icrasını təmin etməli və informasiya əldə etmək haqqında Azərbaycan Respublikası Qanununun tələblərinin icrasına səmərəli nəzarəti həyata keçirməlidir.*

## 2. Dövlət orqanlarının öz fəaliyyəti barədə ictimaiyyətə müntəzəm məlumat verməsi

| | |
|---|---|
| 2.1 | Dövlət orqanlarının öz fəaliyyəti barədə məlumatları mütəmadi, yenilənmiş əsaslarla internet səhifələrində yerləşdirməsi (icra müddəti: mütəmadi) |

Bu bəndin icrası dövlət orqanları tərəfindən 88 faiz tam, 3 faiz qismən icra edilmiş, 9 faiz icra edilməmişdir. Belə ki, əksər dövlət orqanları mütəmadi olaraq öz fəaliyyətləri barədə məlumatları yenilənmiş əsaslarla internet səhifələrində yerləşdirmişdir. İcranı qismən təmin edən orqanların internet səhifələrində məlumatlar natamam yerləşdirilmiş vətəndaşlar üçün xüsusi əhəmiyyət kəsb edən hesabatlar və digər məlumatlar ətraflı yerləşdirilməmişdir. *Komissiya qeyd edir ki dövlət orqanlarının internet səhifələri mütəmadi yenilənməli və vətəndaşlarla ünsiyyətin qurulması üçün səmərəli vasitə kimi istifadə edilməlidir. Məlumatlar asan əldə edilə bilən formada səhifələrdə yerləşdirilməli, vətəndaşların səhifələrdən geniş istifadəsi üçün təşviqat tədbirləri görülməlidir.*

| | |
|---|---|
| 2.2 | Dövlət orqanlarının öz fəaliyyəti barədə illik məruzələr tərtib etməsi və internet səhifələrində açıqlaması (icra müddəti 2012-2015) |

Bu bəndin icrası dövlət orqanları tərəfindən 88 faiz tam icra edilmiş, 12 faiz isə icra edilməmişdir. *Komissiya qeyd edir ki, illik məruzələr dövlət orqanlarının fəaliyyəti ilə bağlı əhəmiyyətli məlumat daşıyıcısı və qurumun fəaliyyətində şəffaflığın göstəricilərindən biridir. Bu məlumatların digər dövlət qurumları tərəfindən də ictimaiyyətə açıqlanması üzrə tədbirlər həyata keçirilməlidir.*

| | |
|---|---|
| 2.3 | Dövlət orqanlarının öz fəaliyyəti barədə mətbuat konfransları və ictimaiyyətlə birbaşa ünsiyyət formasında tədbirlər keçirməsi (icra müddəti 2012-2015) |

Bu bəndin icrası dövlət orqanları tərəfindən 79 faiz tam icra edilmiş, 3 faiz qismən icra edilmiş, 18 faiz isə icra edilməmişdir. *Komissiya qeyd edir ki, mətbuat konfransları və digər açıq görüşlər barədə məlumatlar qabaqcadan vətəndaşlara bildirilməli və qurumların internet səhifələrində yerləşdirilməlidir. Bunun üçün də vətəndaşlar üçün təşkil edilən qəbul günlərinin, açıq qapı formatında tədbirlərin sayı artırılmalı, bu prosesdə elektron vasitələrin tətbiqi genişləndirilməlidir. Bir sıra dövlət qurumları öz fəaliyyətləri barədə hesabatları internet səhifələrində yerləşdirsə də, bununla bağlı birbaşa ünsiyyət formasında tədbirlər keçirməmişlər.*

| | |
|---|---|
| 2.4 | Dövlət orqanlarının fəaliyyətini tənzimləyən qanunvericilik aktlarının anlaşılan sadə dildə yazılmış versiyasının, bələdçi qaydaların tərtib edilməsi və bu məlumatların vətəndaşlar arasında təşviq edilməsi (icra müddəti: mütəmadi) |

Bu bəndin icrası dövlət orqanları tərəfindən 55 faiz tam icra edilmiş, 18 faiz qismən icra edilmiş, 27 faiz isə icra edilməmişdir. Bu bəndə müvafiq olaraq, Azərbaycan Respublikası Prezidenti

| | |
|---|---|
| yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən bu qurumun fəaliyyətini tənzimləyən və həmçinin sadə dildə yazılmış "ASAN Xidmət" mərkəzləri barədə ümumi məlumatları əks etdirən kitabçalar və həmin mərkəzlərində gösətrilən xidmətlər və rüsumlar barədə məlumat xarakterli broşurlar çap edilərək əhaliyə mütəmadi paylanmışdır. Həmçinin bu məlumatlar qurumun internet səhifəsində və sosial şəbəkələrdə olan hesablarında aktiv paylaşılmışdır. *Komissiya qeyd edir ki, bu formatda məlumatlar mütəmadi hazırlanmalı, dövlət qurumlarının inzibati binalarında vətəndaşların aydın görə biləcəkləri yerlərdə yerləşdirilməli, müasir elektron vasitələrdən, xüsusilə sosial şəbəkələrin imkanlarından istifadə etməklə vətəndaşlara çatdırılmalıdır. Həmçinin dövlət qurumları hazırladıqları bələdçi qaydalar və bu tip nəşrləri elektron və ya nəşr formasında Komissiyaya göndərdikləri hesabatlara əlavə etməlidirlər.* | |
| 2.5 | Dövlət proqramlarının əhatə etdiyi sahələr üzrə internet portallarının yaradılması (icra müddəti 2012-2014) |
| Bu bəndin icrası dövlət orqanları tərəfindən 72 faiz tam icra edilmiş, 16 faiz qismən icra edilmiş, 12 faiz isə icra edilməmişdir. Əksər mərkəzi icra hakimiyyəti orqanları dövlət proqramları barədə məlumatları öz internet səhifələrində müvafiq bölmə yaratmaqla ictimaiyyətə çatdırlmasını təmin etmişdir. Bu hal tam icra kimi qiymətləndirilmişdir. Tədbirin icrasını qismən təmin edən orqanları bu sahədə müvafiq araşdırmalar aparmış, hazırlıq işlərini yekunlaşdırmış və ya hazırda texniki tədbirlərin icrasını həyata keçirirlər. 2014-cü il ərzində dövlət proqramları ilə bağlı portalların fəaliyyət göstərməsi nəzərdə tutulur. | |
| 2.6 | Dövlət orqanlarının internet səhifələrinin müasir standartlara uyğun olaraq vahid nümunəvi formasının və minimum şərtlərinin müəyyən edilməsi (icra müddəti: 2013-ci il) |
| Bu bəndin icrasına müvafiq olaraq Xüsusi Dövlət Mühafizə Xidməti, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin birgə fəaliyyəti nəticəsində dövlət qurumlarının veb səhifələrinin vahid nümunəvi formasının və mimimum şərtlərinin müəyyən edilməsi barədə Nazirlər Kabineti tərərfindən "Dövlət orqanlarının internet informasiya ehtiyatlarının yaradılmasına və idarə edilməsinə dair Tələblər" təsdiq edilmişdir. Bu bəndin icrası tam hesab edilir. Qeyd olunan sənəd internet ehtiyatlarda yerləşdirilib (www.e-qanun.az) və ictimaiyyət üçün açıqdır. | |
| 2.7 | Azərbaycan Respublikası Nazirlər Kabinetinin Azərbaycan Respublikasının Milli Məclisi qarşısındakı illik hesabatlarında açıq hökumətin təşviqi və korrupsiyaya qarşı mübarizə sahəsində həyata keçirilmiş tədbirlər haqqında məlumat verməsi (icra müddəti 2012-2015) |
| Azərbaycan Respublikası Nazirlər Kabinetinin Azərbaycan Respublikasının Milli Məclisi qarşısındakı illik hesabatlarında qeyd edilən istiqamətlər üzrə həyata keçirilmiş tədbirlər barədə məlumatlar daxil edilmişdir. | |

| | |
|---|---|
| **3. Normativ hüquqi aktların vahid elektron bazasının fəaliyyətinin təkmilləşdirilməsi** | |
| 3.1 | Rəsmi hüquqi istinad mənbəyi olan Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantının mütəmadi yenilənməsi və elektron bazanın daim işlək vəziyyətdə saxlanılması (icra müddəti: mütəmadi) |
| İctimaiyyət üçün daim açıq olan və mütəmadi yenilərək ödənişsiz əsaslarla fəaliyyət göstərən Hüquqi Aktların Dövlət Reysterinin elektron varinatına (www.huquqiaktlar.gov.az) hesabat dövründə 1649, milli qanunvericiliyin elektron bazasında (www.e-qanun.az) isə 1461 sənəd daxil edilmişdir. Hazırda həmin internet resurslarda sənədlərin sayı müvafiq olaraq 18.171 və 26.000-i ötmüşdür. Eyni zamanda həmin saytların işlək vəziyyətdə saxlanılmasını təmin etmək məqsədi ilə hesabat illərində onların texniki və proqram təminatı, o cümlədən qeydiyyat informasiya sistemi təkmilləşdirilmişdir. Təkcə elektron bazaya 2013-cü il ərzində 154.568 başçəkmə olmuşdur ki, bu da ötən illə (129.592) müqayisədə 19.3 % çoxdur. Bu bəndin icra vəziyyəti tam hesab edilir. | |

| | |
|---|---|
| **4. Dövlət orqanlarının fəaliyyətində ictimaiyyətin iştirakının genişləndirilməsi** | |
| 4.1 | Dövlət orqanları tərəfindən ictimai əhəmiyyət kəsb edən qanun layihələrinin hazırlanması prosesinə vətəndaş cəmiyyəti nümayəndələrinin cəlb edilməsi, ictimai dinləmələrin keçirilməsi (icra müddəti: mütəmadi) |
| Bu bəndin icrası dövlət orqanları tərəfindən 53 faiz tam icra edilmiş, 22 faiz qismən icra edilmiş, 25 faiz isə icra edilməmişdir. Belə ki, 53 faiz dövlət orqanları ictimai əhəmiyyət kəsb edən qanun layihələrinin hazırlanması prosesinə vətəndaş cəmiyyətini cəlb etmiş və mütəmadi olaraq ictimai dinləmələr keçirmişdir. İcranı qismən təmin edən orqanlar ictimai dinləmələri bəzi hallarda təşkil etmiş, əsasən bu prosesi onlayn formada, elektron imkanlardan istifadə etməklə həyata keçirmişdir. *Komissiya qeyd edir ki, dövlət orqanları qanunvericiliyin təkmilləşdirilməsi sahəsində vətəndaş cəmiyyəti üzvləri ilə sıx əməkdaşlıq etməli, onların təcrübəsindən istifadə etməli, fikir və rəylərini daim öyrənməlidir. Bununla bağlı mütəmadi ictimai dinləmələrin keçirilməsi və ictimai şuraların fəaliyyətinin təmin edilməsi üçün tədbirlər həyata keçirilməlidir. Eyni zamanda ictimai müzakirəsi həyata keçirilən normativ aktlar və ya mövzular, müzakirələrin nəticələri ilə bağlı məlumatlar ictimaiyyət üçün açıq olmalıdır.* | |
| 4.2 | Əhaliyə xidmət göstərən dövlət orqanları tərəfindən vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığın təkmilləşdirilməsi üçün müvafiq şuraların və ya əməkdaşlıq şəbəkələrinin yaradılması (icra müddəti 2012-2013) |
| Bu bəndin icrası dövlət orqanları tərəfindən 45 faiz tam icra edilmişdir, digər aidiyyəti qurumlar bu istiqamətdə fəaliyyəti həyata keçirməyiblər. Tələb edilən formatda şura və əməkdaşlıq şəbəkələri Gənclər və İdman, Ədliyyə, Əmək və Əhalinin Sosial Müdafiəsi, Ekologiya və Təbii Sərvətlər nazirliklərində həmçinin Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiylar üzrə Dövlət Agentliyində, Dövlət Sosial Müdafiə Fondunda və digər dövlət qurumlarında yaradılmışdır. *Komissiya qeyd edir ki, ümumi olaraq mərkəzi icra hakimiyyəti orqanları yanında ictimai şuraların sayı məhduddur. Bununla bağlı cari ilin 16 yanvar 2014-ci il tarixində qəbul edilmiş "İctimai iştirakçılıq haqqında" Qanunun tələblərinin icra edilməsi və dövlət orqanlarının yanında ictimai şuraların fəaliyyətinin təmin edilməsi zəruridir.* | |
| 4.3 | İctimai maraq kəsb edən qərarların qəbul edilməsi prosesində ictimaiyyətin iştirakını genişləndirmək vasitəsi kimi internet səhifələrindən istifadə edilməsi (vətəndaşların təklif və rəylərinin qəbul edilməsi, müzakirələrin təşkil edilməsi, interaktiv sual-cavab bölmələrinin yaradılması və s.) (icra müddəti: mütəmadi) |
| Bu bəndin icrası dövlət orqanları tərəfindən 81 faiz tam icra edilmiş, 8 faiz qismən icra edilmiş, 20 faiz isə icra edilməmişdir. Belə ki, əksər dövlət orqanlarının internet səhifələrində vətəndaşların təklif və rəylərinin qəbul edilməsi və onların cavablandırılması təmin edilmişdir. | |
| 4.4 | Dövlət orqanları tərəfindən "Açıq qapı" vətəndaş forumlarının keçirilməsi (icra müddəti: mütəmadi) |
| Bu bəndin icrası dövlət orqanları tərəfindən 72 faiz tam icra edilmiş, 8 faiz qismən icra edilmiş, 20 faiz isə icra edilməmişdir. "Açıq qapı" vətəndaş forumları xüsusilə regionlarda intensiv həyata keçirilmiş və vətəndaşlar tərəfindən müsbət qarşılanmışdır. Hesabat dövründə həmçinin mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən mütəmadi olaraq regionlarda vətəndaşların qəbulu təşkil edilmişdir. Komissiya qeyd edir ki, dövlət orqanları növbəti hesabatlarında həyata keçirdikləri "Açıq qapı" vətəndaş forumları ilə bağlı ətrafı məlumatları (forumların sayı, təxmini iştirakçıların sayı, mətbuatda yer alan məlumatlar və sair) təqdim etməlidirlər. | |

| | |
|---|---|
| **5. Elektron xidmətlərin təkmilləşdirilməsi** | |
| 5.1 | Elektron xidmətlər göstərilməsi üzrə qiymətləndirmənin həyata keçirilməsi və ictimaiyyətə açıqlanması (icra müddəti: mütəmadi) |
| Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar Agentliyin 11 yanvar 2013-cü il tarixli qərarı ilə təsdiq edilmiş "Dövlət orqanlarında elektron xidmətlərin təşkili və göstərilməsi üzrə qiymətləndirmə Qaydaları"na əsasən elektron xidmətlərdən istifadə dərəcəsini müəyyən edilməsi məqsədi ilə 22 yanvar 2013-cü il tarixindən 19 iyul tarixinədək Azərbaycan Respublikasının 40 dövlət orqanı tərəfindən göstərilən hər bir elektron xidmətin qiymətləndirilməsi həyata keçirilmiş, bu haqda ictimaiyyətə Dövlət Agentliyin rəsmi internet səhifəsində məlumat verilmişdir. Bu zaman dövlət orqanları tərəfindən göstərilən hər bir elektron xidmət üzrə qiymətləndirmənin həyata keçirdiyi tarixdən əvvəlki 1 il üçün "Həyata keçirilən elektron xidmətlərdən istifadə edənlərin sayı barədə məlumat" rüblər üzrə toplanmış, əhali tərəfindən çox və az istifadə edilən elektron xidmətlər müəyyən edilmişdir. Aparılan qiymətləndirmənin nəticəsində həmin orqanlara mövcud İKT infrastrukturlarının vəziyyəti və elektron xidmətlərin təşkili səviyyəsini əks etdirən rəylər təqdim edilmişdir**.** *Komissiya qeyd edir ki, Agentlik tərəfindən uyğun praktikanın növbəti il üçün keçiriləcək qiymətləndirmədə də tətbiq edilməsi və xidmətlərdən istifadə vəziyyətinin mütəmadi izlənməsi təmin edilməlidir.* | |
| 5.2 | Dövlət orqanlarının öz səlahiyyətlərinə uyğun olaraq həyata keçirdikləri elektron xidmətlər barədə ildə bir dəfədən az olmayaraq ictimai təqdimatlar keçirməsi (icra müddəti 2013-2015) |
| Bu bəndin icrası dövlət orqanları tərəfindən 49 faiz tam icra edilmiş, 18 faiz qismən icra edilmiş, 33 faiz isə icra edilməmişdir. Tədbirin icrasını tam təmin edən dövlət orqanlar göstərilən elektron xidmətlər barədə məlumatları ictimaiyyətə təqdim etmiş, bu məqsədlə təqdimatlar və maarifləndirmə tədbirləri həyata keçirmişdir. | |
| 5.3 | Dövlət orqanları arasında elektron informasiya dövriyyəsinin təmin edilməsi məqsədi ilə vahid sistemin yaradılması (icra müddəti 2013-2014) |
| 2012-2013-ci illərdə Elektron Hökumət Dövlət İnformasiya Sistemi yaradılmış və artıq 40 dövlət orqanın bu sistemə qoşulması təmin etmişdir. 2014-ci ildə digər dövlət qurumların da bu sistemə qoşulması planlaşdırılır və hazırlıq işləri görülür. | |
| 5.4 | Rüsumların, vergilərin, inzibati cərimələrin, kommunal xərclərin və digər inzibati ödənişlərin elektron qaydada ödənilməsinin təkmilləşdirilməsi (icra müddəti 2013-2014) |
| Bu bəndin icrasına müvafiq olaraq Mərkəzi Bank tərəfindən Hökumət Ödəniş Portalı yaradılmış və hal-hazırda ödənişlərin elektron qaydada ödənilməsi üçün təkmilləşdirmə işləri aparılır. Hazırda 50-dən artıq qurum bu ödəniş portalına qoşulmuşdur. Həmçinin Azərbaycan Respublikasının Prezidentinin 11 fevral 2014-ci ildə "Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında" fərmanına edilən dəyişikliklər nəticəsində çox funksiyalı "ASAN Ödəniş" sistemi yaradılmışdır. Vətəndaşlar "ASAN ödəniş" vasitəsi ilə inzibati cərimələri və məhkəmə qərarlarının icrası ilə əlaqədar ödənilməli olan vəsaitləri elektron qaydada mobil qurğular, xüsusi terminal və digər yollarla ödəyə biləcəklər. *Komissiya qeyd edir ki, bu istiqamətdə fəaliyyətin əhatəsi genişləndirilməli və vətəndaşlar bütün rüsumları, vergiləri, inzibati cərimələri, kommunal xərclər və digər inzibati ödənişləri elektron qaydada ödəmələri təmin edilməlidir.* | |
| 5.5 | Regionlarda əhalinin elektron xidmətlərdən istifadə imkanlarının artırılması üzrə tədbirlərin həyata keçirilməsi (icra müddəti 2013-2014) |
| Bu bəndinin icrası ilə əlaqədar Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin (RYTN) "Azərpoçt" | |

| |
|---|
| müəssisəsi tərəfindən 30 ucqar kəndlərin poçt şöbələrində internet köşklər quraşdırılmış və geniş zolaqlı internetə çıxışla təmin edilmişdir. Bakı şəhərində bütün Telefon Qovşaqlarının Abunə şöbələrində ictimai informasiya kiosklarıı quraşdırılmış, onların internet şəbəkəsinə çıxışı təmin edilmiş və təlimatlandırma işləri aparılmışdır. 2014-cü ilin sonunadək RYTN tərəfindən ictimai informasiya kioskların 15 rayonda quraşdırılması nəzərdə tutulmuşdur. Bakı şəhərində fəaliyyət göstərən bütün "ASAN xidmət" mərkəzlərində özünəxidmət kioskların fəaliyyəti təmin edilmiş o cümlədən, Sumqayıt "ASAN xidmət" mərkəzində 3 ədəd, Gəncə "ASAN xidmət" mərkəzində isə 4 ədəd özünəxidmət kioskları quraşdırılmışdır. Həmçinin Azərbaycan Respublikasıının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin regionlarda yaradılması planlaşdırılan "ASAN xidmət" mərkəzlərində də elektron məlumat kiosklarının yaradılması nəzərdə tutulur. RYTN tərəfindən Yevlax şəhərində alternativ regional xidmət mərkəzi yaradılmış, 21 noyabr 2013-ci il tarixində istifadəyə verilmişdir. Həmçinin bu bəndə müvafiq olaraq RYTN tərəfindən 2013-ci ildə ölkənin hər bir yaşayış məntəqəsində fiber-optik kabel şəbəkəsi üzərindən əhalinin yüksəksürətli genişzolaqlı internet və digər müasir telekommunikasiya xidmətlərinə çıxışını nəzərdə tutan "Milli genişzolaqlı internetin inkişafı" layihəsi hazırlanmış və Nazirlər Kabinetinə təqdim edilmişdir. *Komissiya qeyd edir ki, yerli icra hakimiyyəti orqanları bu istiqamətə diqqəti artırmalı rayon ərazində yerləşən dövlət qurumlarının inzibati binalarında və digər ictimai yerlərdə müvafiq informasiya texnologiyalarının fəaliyyətini təmin etməlidirlər.* |

| | |
|---|---|
| **6. Maliyyə nəzarətini həyata keçirən orqanların fəaliyyətində şəffaflığın artırılması** | |
| 6.1 | Dövlət maliyyə nəzarətini həyata keçirən orqanların səlahiyyətlərinin dəqiqləşdirilməsi və maliyyə nəzarəti üzrə daha təkmil hüquqi baza təmin etmək üçün maliyyə nəzarəti haqqında qanun layihəsinin hazırlanması (icra müddəti 2013-2014) |
| Bu bəndin icrasını təmin etmək məqsədi ilə müvafiq qanun layihəsi (Dövlət Maliyyə Nəzarəti haqqında) hazırlanmış və aidiyyəti dövlət qurumlarının bununla bağlı rəyləri alınmışdır. Qanun layihəsində dövlət maliyyə nəzarətini həyata keçirən orqanlarının səlahiyyətinin dəqiqləşdirilməsi üzrə müddəalar nəzərdə tutulmuşdur. | |
| 6.2 | Maliyyə nəzarəti orqanlarının hesabatlılığının artırılması və həmin orqanlar tərəfindən maliyyə nəzarətinin nəticələri barədə təhlillərin və statistik məlumatların ictimaiyyətə təqdim edilməsi (icra müddəti 2013-2015) |
| Maliyyə nəzarəti orqanlarının hesabatlılığının artırılması ilə bağlı müddəalar 6.1-ci bəndə qeyd edilmiş qanun layihəsində nəzərdə tutulmuşdur. Bəndin ikinci hissəsi ilə bağlı aidiyyəti məlumatlar ictimaiyyətə Maliyyə Nazirliyin, Vergilər Nazirliyinin, Hesablama Palatasının və digər aidiyyəti qurumların rəsmi internet səhifəsi vasitəsilə təmin edilmişdir. | |
| 6.3 | Maliyyə nəzarətində informasiya texnologiyalarının tətbiqi və elektron nəzarət ("e-nəzarət") sisteminin yaradılması (icra müddəti 2013-2014) |
| Bu bəndinin icrası məqsədi ilə Maliyyə Nazirliyinin Dövlət Xəzinədarlığı Agentliyində beynəlxalq təcrübədə geniş tətbiq edilən, biznes proseslərinin idarə olunmasında mütərəqqi proqram təminatı hesab edilən SAP proqramı əsasında Dövlət Xəzinədarlıq Agentliyinin bir sıra xəzinədarlıq idarələrində "Xəzinədarlığın İnformasiya İdarəedilməsi Sistemi" tətbiq edilmişdir. Eyni zamanda Dövlət Xəzinədarlığı Agentliyi xəzinə xidmətlərinin keyfiyyətinin artırılması və büdcə xərclərinin icra mexanizminin təkmilləşdirilməsi və bu istiqamətdə nəzarətin gücləndirilməsi məqsədilə büdcə təşkilatları ilə müvafiq proqram təminatı hazırlamışdır. | |
| 6.4 | Maliyyə nəzarəti orqanlarının qarşılıqlı fəaliyyətinin təmin edilməsi, onlar arasında vahid elektron informasiya bazasının yaradılması, informasiya mübadiləsinin təşkili (icra müddəti 2013-2014) |
| Bu bəndin icrası ilə əlaqədar Maliyyə Nazirliyinin Kollegiyasının 14 fevral 2013-cü il tarixli Q-07 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə | |

| | |
|---|---|
| Nəzarəti Xidməti (DMNX) tərəfindən nəzarət tədbirlərinin planlaşdırılması, aparılması və nəticələrin rəsmiləşdirilməsi Qaydaları"nda digər dövlət maliyyə nəzarəti orqanları ilə məlumat mübadiləsinin aparılması və DMNX-nin və onun regional bölmələrinin iş planlarının hazırlanmasında nəzərə alınması əksini tapmış və hazırda Xidmətin fəaliyyətində tətbiq olunur. Hal-hazırda Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə Hesablama Palatası arasında müvafiq informasiya mübadiləsinin aparılması təmin edilir. Eyni zamanda DMNX-də nəzarət obyektləri haqqında minimum məlumatları və onlarda həyata keçirilmiş sonuncu nəzarət tədbirlərinin tarixini göstərən vahid elektron məlumat bazası mövcuddur. | |
| 6.5 | Dövlət müəssisələrinin Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına və ya Milli Mühasibat Uçotu Standartlarına uyğun olaraq tərtib edilmiş maliyyə hesabatlarının auditor rəyi ilə birlikdə dərc edilməsinə nəzarət mexanizmlərinin təkmilləşdirilməsi (icra müddəti 2013-2014) |
| Bu bəndin icrası ilə əlaqədar ilə "Mühasibat uçotu haqqında" Qanunun 12-ci və 16-cı maddələrində edilmiş dəyişiklər nəticəsində dövlət zəmanəti ilə kredit alan və ya dövlət borcunun xərclənməsi ilə bağlı layihələrdə iştirak edən, həmçinin büdcədən subsidiya, subvensiya, qrant və ya müəyyən səlahiyyətlərin yerinə yetirilməsi ilə bağlı büdcə vəsaiti ayrılan kommersiya təşkilatları tərəfindən illik maliyyə hesabatlarının auditor rəyi ilə dərc edilməsi təmin edilmişdir. Eyni zamanda İnzibati Xətalar Məcəlləsinin 247-1-ci maddəsində edilmiş dəyişiklərə əsasən dövlət müəssisələri tərəfindən illik maliyyə hesabatlarının auditor rəyi ilə birlikdə dərc edilməməsinə görə məsuliyyət müəyyən olunmuşdur. Bundan başqa sözügedən mexanizmin daha da təkmilləşdirilməsi barədə Auditorlar Palatasının təkliflərinə Maliyyə Nazirliyi tərəfindən baxılır. | |
| 6.6 | Yerli büdcənin tərtibinə və icrasına, o cümlədən sərf edilən vəsaitin təsdiq edilmiş büdcə göstəricilərinə uyğunluğuna, habelə bələdiyyələrin maliyyə hesabatlarının vaxtında təsdiq olunmasına nəzarət mexanizmlərinə və prosedurlarına dair təkliflər hazırlanması (icra müddəti: 2013-ci il) |
| Bu bəndin icrası ilə əlaqədər olaraq bələdiyyə orqanları tərəfindən yerli büdcənin icrası, maliyyə hesabatlarının təqdim edilməsi, hesabat dövrləri və dərc edilməsi ilə əlaqədər müəyyən təkiflər paketi hazırlanmış və bunun nəticəsində "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq dəyişiklər edilmişdir. Eyni zamanda Maliyyə Nazirliyi tərəfindən bələdiyyələrin gəlirləri və xərcləri barədə məlumatları həmçinin yerli büdcələrin icrasına dair rüblük və illik hesabatların elektron formada nazirliyə təqdim olunmasına şərait yaradılmışdır. | |
| 6.7 | Dövlət büdcəsinin icrası barədə hesabat və müvafiq qanun layihələrinin Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edilənədək dərc edilməsi (icra müddəti 2013-2015) |
| Bu bəndin icrası ilə bağlı qeyd edilməlidir ki, "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq 2012-ci ilin dövlət büdcəsinin icrası barədə illik və 2013-cü il üzrə dövlət büdcəsinin icrası barədə rüblük hesabatlar Maliyyə Nazirliyinin rəsmi internet səhifəsində yerləşdirilmişdir. Həmin hesabatlarda dövlət büdcəsinin icrası funksional və iqtisadi təsnifat əsasında ilin əvvəlindən artan yekunla əks etdirilir. Rüblük hesabatlarda başqa göstəricilərlə yanaşı, gəlir və xərclərin icrasına müqayisəli təhlil verilir. | |

## 7. Vergi nəzarəti və yoxlamaları prosesində şəffaflığın artırılması

| | |
|---|---|
| 7.1 | Vergi ödəyicilərinin zəruri məlumatla təmin edilməsi və vergi ödəyiciləri ilə təbliğat işinin təkmilləşdirilməsi (icra müddəti 2012-2014) |

Bu bəndin icrası ilə bağlı Vergilər Nazirliyinin internet səhifəsi mütəmadi yenilənmiş, yeni bölmələrlə təchiz edilmiş, nazirliyinin 195 Telefon məlumat xidməti tərəfindən vətəndaşların müraciətləri avtomatik rejimdə cavablandırılmışdır. 2013-cü ildə Vergilər Nazirliyinin internet səhifəsinə 3.5 milyon nəfər şəxs daxil olmuşdur. Həmçinin həmin dövr ərzində nazirliyin internet səhifəsinin “Sual-cavab” bölməsinə daxil olmuş 2236 müraciətin cavablandırılması təmin edilmişdir. Hesabat ilində vergi qanunvericiliyi və inzibatçılığı sahəsində vergi ödəyiciləri üçün zəruri informasiyanı əks etdirən, azərbaycan və ingilis dillərində 14 adda kiçik həcmli buklet, kitabça və jurnal nəşr etdirilmiş və onların vergi ödəyicilərinə çatdırılması üçün müvafiq tədbirlər görülmüşdür. Eyni zamanda, Bakı şəhərində fəaliyyət göstərən vergi borcu olan abonentlərə Bakı Elektrik Şəbəkə ASC-nin verdiyi bildirişlərin arxa tərəflərində əmək müqaviləsinin bağlanılmasının zəruriliyi barədə təbliğat materialları yerləşdirilmişdir. Respublika ərazisində nağdsız ödənişlərin üstünlüklərini təbliğ edən xüsusi reklam lövhələri yerləşdirilmiş və mövzular yenilənmişdir.

| | |
|---|---|
| 7.2 | Vergi orqanlarının fəaliyyətinin Beynəlxalq Valyuta Fondunun Vergi şəffaflığı üzrə yaxşı praktika haqqında kodeksinə uyğunlaşdırılması sahəsində tədbirlər görülməsi (icra müddəti 2012-2013) |

Bu bəndin icrası ilə əlaqədar vergi orqanlarının fəaliyyətinin Beynəlxalq Valyuta Fondun “Vergi şəffaflığı üzrə yaxşı praktika haqqında kodeksi”nə uyğunlaşdırılması sahəsində tədbirlər davam etdirilmişdir. Bununla əlaqədar müvafiq təkliflər hazırlanmış və Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim edilmişdir.

| | |
|---|---|
| 7.3 | Vergilərin və digər icbari ödənişlərin elektron qaydada ödənilməsinin təkmilləşdirilməsi üçün müvafiq tədbirlər görülməsi (icra müddəti 2012-2013) |

Bu bəndin icrası ilə əlaqədar vergilərin və digər icbari ödənişlərin elektron qaydada ödənilməsinin təkmilləşdirilməsi davam etdirilmişdir. Vergilər nazirliyi tərəfindən əksər ödənişlərin elektron qaydada ödənilməsi təmin edilmişdir. Həmçinin vergi ödəyicilərinin ƏDV depozit hesabı vasitəsilə ƏDV faizləri üzrə borcunun yarandığı təqdirdə bu məbləğin sub-çot hesabından avtomatik büdcəyə silinməsi ilə bağlı vergi ödəyiciləri üçün İnternet Vergi idarəsində müvafiq imkan yaradılmış və 2013-cü ildən istifadəyə verilmişdir.

## 8. Mineral ehtiyatların hasilatı ilə məşğul olan sənaye sahələrində şəffaflığın artırılması

| | |
|---|---|
| 8.1 | Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsünün Azərbaycanda davamlı tətbiqi və inkişafı üçün Azərbaycan Respublikası hökumətinin ölkədə mineral ehtiyatların hasilatı ilə məşğul olan yerli və xarici şirkətlər, habelə vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığının davam etdirilməsi (icra müddəti 2012-2015) |

Bu bəndin icrası üzrə Dövlət Neft Fondu tərəfindən mütəmadi tədbirlər həyata keçirilmişdir. Hesabat dövründə bununla bağlı hökumət, özəl sektor və vətəndaş cəmiyyəti nümayəndələrinin iştirakı ilə 10-dan çox görüş keçirilmiş və bu sahədə hesabatlılığın artırılması üçün təlimlər təşkil edilmişdir. Bu bəndin icra vəziyyəti hesabat dövrü üçün tam hesab edilir.

| | |
|---|---|
| 8.2 | Azərbaycan Respublikası hökumətinin mədən sənayesində əldə etdiyi məcmu daxilolmalar barədə hesabatların ictimaiyyətə mütəmadi açıqlanmasının davam etdirilməsi (icra müddəti 2012-2015) |

Bu bəndin icrası ilə əlaqədar Dövlət Neft Fondu tərəfindən mədən sənayesində əldə edilmiş məcmu daxilolmalar barədə hesabatların mütəmadi olaraq ictimaiyyətə açıqlanması təmin edilmişdir.

| 8.3 | Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsünün Azərbaycanda tətbiqi üzrə illik hesabatların açıqlanması (icra müddəti 2012-2015) |
|---|---|

Dövlət Neft Fondu tərəfindən Mineral Ehtiyatların Hasilatı ilə Məşğul olan Sənaye Sahələrində Şəffaflıq Təşəbbüsünün Azərbaycanda tətbiqi üzrə 2012-ci və 2013-cü il üzrə hesabatı ictimaiyyətə açıqlanmışdır.

## 9. Açıq hökumətin təşviqi üçün görülən tədbirlərlə bağlı maarifləndirmənin və əməkdaşlığın həyata keçirilməsi

| 9.1 | Fəaliyyət Planının icrası üzrə tədbirlərin yerinə yetirilməsi vəziyyətinin hər il üzrə dəyərləndirilməsi və ictimaiyyətə açıqlanması (icra müddəti 2012-2015) |
|---|---|

Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 5 sentyabr tarixli Sərəncamına əsasən dövlət qurumları Fəaliyyət planında nəzərdə tutulan tədbirlərin icrası barədə Azərbaycan Respublikasının Nazirlər Kabinetinə və Komissiyaya illik hesabatlarını təqdim edirlər. Komissiya tərəfindən bununla bağlı məlumatların ictimaiyyətə açıqlanması təmin edilir.

| 9.2 | Açıq hökumət təşəbbüsü üzrə maarifləndirici materialların nəşri və əhali arasında paylanması (icra müddəti: mütəmadi) |
|---|---|

Bu bəndin icrası dövlət orqanları tərəfindən 74 faiz tam icra edilmiş, 4 faiz qismən icra edilmiş, 22 faiz isə icra edilməmişdir. Qismən icra edən dövlət orqanları bu istiqamətdə müvafiq hazırlıqları həyata keçirmələrini qeyd etsələr də materialları nəşr etməmiş və təşviq etməmişlər.

| 9.3 | “Açıq Hökumət Tərəfdaşlığı” çərçivəsində öhdəliklərin icrası istiqamətində zəruri tədbirlərin davam etdirilməsi (icra müddəti 2012-2015) |
|---|---|

Bu bəndin icrası dövlət orqanları tərəfindən 60 faiz tam icra edilmişdir. Beləki qurumlar tərəfindən qəbul edilmiş illik fəaliyyət planları və həyata keçirilmiş tədbirlər barədə hesabatlar ictimaiyyətə açıqlanmışdır. Komissiya qeyd edir ki, dövlət orqanları Açıq Hökumət prinsiplərini fəaliyyətlərində rəhbər tutmalı və fəaliyyətləri barədə məlumatları mütəmadi ictimaiyyətə açıqlamalıdırlar. Bu proses həmçinin vətəndaş cəmiyyəti üzvlərinin bir başa iştirakı ilə seminar, konfrans, dəyirmi masa və digər formatlarda həyata keçirməlidir.

| 9.4 | Fəaliyyət Planında nəzərdə tutulan tədbirlərin icrası üçün vətəndaş cəmiyyəti institutlarına maliyyə dəstəyi (icra müddəti 2012-2015) |
|---|---|

Bu bəndin icrası 27 faiz dövlət orqanları tərəfindən yerinə yetirilib. Bu məqsədlə İqtisadiyyat və Sənayə, Əmək və Əhalinin Sosial Müdaifəsi, Rabitə və Yüksək Texnologiyalara Nazirlikləri, Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiya, Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına dəstək Şurası və bir sıra digər dövlət orqanları vətəndaş cəmiyyəti institutlarına maliyyə dəstəyi ayırmışdır. *Komissiya qeyd edir ki, vətəndaş cəmiyyət institutlarına bu sahədə dəstək və əməkdaşlıq mütəmadi xarakter daşımalı və birgə layihələrin sayı artmalıdır.*